# Alqışlar... 110-cu dəfə

*Akademik Musiqili Teatr yeni mövsümə start verir. Əsl yaradıcılıq şövqü və bayram ovqatı ilə. Bəs necə? Ötən mövsüm teatra akademik statusu verilib, buna uyğun olaraq da təkcə teatrın rəsmi nüfuzu yüksəlməyib, həm də burada çalışan böyük bir kollektivin maaşları da əhəmiyyətli dərəcədə artıb. Bayram ovqatı isə qarşıdakı əlamətdar hadisə ilə bağlıdır-110-cu mövsüm başlanır.*

*Teatrın direktoru, Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Əliqismət Lalayevlə yeni mövsüm və kollektivin yeni yaradıcılıq planları barədə danışırıq.*

**- Bəlkə ənənəni pozmayaq, müsahibəyə ötən mövsümün yekunları ilə bağlı söhbətlə başlayaq?**

- Məncə oxucularımız üçün də maraqlı olar, çünki söhbət tamaşaçıların ən sevimli teatrlarından birinin- Akademik Musiqili Teatrının ötən mövsüm gördüyü işlər barədə gedəcək.

109-cu mövsüm də kollektivimiz üçün yaradıcılıq baxımından zəngin və əlamətdar oldu,



teatrımıza akademik statusu verildi. Oxucularımız yəqin ki, yaxşı xatırlayırlar, bu il martın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşdülər. Çox səmimi şəraitdə keçən həmin görüşdə incəsənətimizin, mədəniyyətimizin bu günü, sabahı, dünyada tanıdılması ilə bağlı ətraflı söhbət açıldı, təkliflər səsləndirildi. Teatrlarımızın gördüyü işlər, qazandığı uğurlar və bu sahədə nəzərə çarpan problemlər haqqında da danışıldı. Həmin görüşdən cəmi bir neçə gün sonra Dövlət Musiqili Teatrına akademik statusun verilməsi, teatr sahəsində çalışanların əmək haqlarının artırılması barədə sərəncamlar imzalandı. Mətbuatın yaratdığı imkandan istifadə edib teatrımızın bütün kollektivi adından dövlət başçımıza, birinci vitse-prezidentimizə bir daha minnətdarlığımı bildirirəm. Musiqili Teatra akademik statusunun verilməsi zəngin ənənəsi olan bu kollektivdə çalışmış, mədəniyyətimizə töhfələr vermiş korifey sənətkarlarımızın ruhuna bir ehtiramdır. Bu gün yorulmadan xalqımıza xidmət göstərən, incəsənətimizi müxtəlif ölkələrdə uğurla təbliğ edən əməkdaşlarımızın alın tərinə, zəhmətinə göstərilən qiymət, həm də gələcəkdə burada çalışmağı arzulayan gənclərə bir stimuldur.

Ölkə başçısının sərəncamları ilə keçən mövsüm teatrın yaradıcı heyətindən 9 nəfərə Prezident mükafatı, 1 nəfərə isə Əməkdar artist fəxri adı verilib. Dövlət rəhbərinin, eləcə də hörmətli Mehriban xanımın teatrımıza daim diqqət və qayğı göstərməsi bizi hədsiz sevindirməklə yanaşı işimizə daha məsuliyyətlə yanaşmağa sövq edir. Həmişə sənət adamlarının yanında olan, onlara dəstəyini əsirgəməyən müstəqil və qüdrətli Azərbaycan dövləti ilə qürur duyuruq.

Ötən mövsüm qazandığımız uğurlardan bəhs edərkən deyim ki, dəyərli tamaşaçılarımıza 5 yeni səhnə əsəri təqdim etdik və premyeralarımız anşlaqla keçdi. Teatr ictimaiyyəti, tənqidçilər, mətbuat və daimi tamaşaçılarımız yeni hazırladığımız səhnə əsərlərini maraqla qarşıladı, yüksək qiymət verdi.

**- Dünya şöhrətli yazıçı Antuan de-Sent Ekzüperinin qələmə aldığı "Balaca Şahzadə" əsərinin teatrınızda səhnəyə qoyulması ciddi sənət hadisəsi kimi dəyərləndirildi...**

- Həqiqətən də belə bir əsərin beynəlxalq layihə çərçivəsində Akademik Musiqili Teatrda tamaşaya qoyulması yaradıcı kollektivimizə göstərilən bir etimad idi, sevinirik ki, sonda baxımlı, müasir standartlara uyğun bir iş ortaya qoyuldu. Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanan "Balaca Şahzadə" tamaşasının layihə rəhbəri fondun vitse-prezidenti Leyla Əliyeva idi. Leyla xanım məşqlərə də gəlir, yaradıcılıq prosesi ilə maraqlanır, öz tövsiyələrini verirdi.

**- İndi də istərdim yeni mövsümlə bağlı planlarınızdan danışaq. 110-cu mövsümdə tamaşaçılar hansı yeni əsərlərə görə biləcəklər?**

- Hər yeni mövsüm həm kollektivimiz, həm də dəyərli tamaşaçılarımız üçün bir sənət bayramıdır. Teatrımızın 110-cu mövsümü olduğu üçün bayram sevincimiz ikiqatdır. Yeni mövsümün açılışı daha bir əlamətdar hadisə ilə üst-üstə düşdü, bildiyiniz kimi, son günlər Bakı-



da Üzeyir Hacıbəyli XI Beynəlxalq Musiqi Festivalı keçirilir, teatrımızın kollektivi bu musiqi bayramı çərçivəsində reallaşan tədbirlərdə yaxından iştirak edir. 110-cu mövsümünün açılışı da dahi bəstəkarın adı ilə bağlı olan beynəlxalq festival günlərinə təsadüf etməsinin də rəmzi bir mənası var. Sentyabrın 20-də Üzeyir bəyin ölməz "O olmasın, bu olsun" tamaşası ilə yeni mövsümə start verdik. Tamaşaçılar teatrımızın repertuarında özünə möhkəm yer tutan bu səhnə əsərində həmin axşam bir yeniliyin də şahidi oldular. Hambal rolunu İranda və Azərbaycanda yaxşı tanınan, Təbriz teatrının istedadlı aktyoru Babək Nəhreyn oynadı.

Tamaşaçılarımız xarici ölkədən dəvət etdiyimiz daha bir tanınmış sima ilə görüşmək şansı əldə edəcəklər. Sentyabrın 27-də İmre Kalmanın "Silva" tamaşasını rusdilli publikamız üçün nümayiş etdirməyi planlaşdırmışıq. Silva obrazını Minsk Akademik Musiqili Teatrının aparıcı solistlərindən biri, Belarusun Əməkdar artisti Marqarita Aleksandroviç ifa edəcək.

Yeni mövsümdə də 5 təzə tamaşa üzərində yaradıcılıq işləri aparmağı nəzərdə tutmuşuq. Məzuniyyətdən qayıdan kollektivimiz artıq paralel olaraq bir neçə yeni əsərin məşqlərinə başlayıb. Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə Stanislav Stratiyevin "Avtobus" pyesi əsasında "Çarəsiz sərnişinlər" tamaşasını hazırlayır. Gənc rejissor Samir Qulamovu dünya şöhrətli yazıçı Viktor Hüqonun "Paris Notr-Dam kilsəsi" əsərinə quruluş vermək üçün dəvət etmişik. Məşqlərinə başlanan bu tamaşa yaxınlarda yanğın nəticəsində məhv olmaq təhlükəsi ilə üzləşən möhtəşəm mədəniyyət abidələrindən birinə-Notr-Dam kilsəsinə həsr edilib.

Müxtəlif illərdə ayrı-ayrı quruluşlarda oynanılan, tamaşaçılarımızın maraqla baxdığı retro tamaşalarımızdan birini yenidən təqdim etməyi düşünürük. Əməkdar incəsənət xadimi Əsgər Əsgərov belə tamaşalarımızdan birinə- Səid Rüstəmov və Məmməd Səid Ordubadinin "Beş manatlıq gəlin" əsrinə yeni quruluş verəcək.

Tələbkar tamaşaçılarımız Xalq artisti, "Şöhrət" ordenli Afaq Bəşirqızının hər bir yeni rolunu maraqla gözləyir, istedadlı aktrisamızın oynadığı tamaşalara sevə-sevə baxırlar. Yeni mövsümdə Afaq xanımın çoxsaylı pərəstişkarları onu "İstintaq" tamaşasında tam fərqli obrazda görə biləcəklər. Tamaşaya Xalq artisti Firudin Məhərrəmov quruluş verəcək.

Teatrımız ənənəsinə sadiq qalaraq bu mövsümdə balaca tamaşaçılar üçün də təzə səhnə əsəri hazırlayır. Gənc rejissor Əhəd Hacıyev görkəmli gürcü dramaturqu Nodar Dumbadzenin məşhur "Mən, nənəm, İliko və İllarion" əsəri əsasında hazırlanan tamaşa ilə məktəb yaşlı tamaşaçılarımızı sevindirəcəyik.

**- Son illər Akademik Musiqili Teatr müxtəlif ölkələrdə keçirilən festivallarda uğurla çıxış edir. Yeni dəvətlər varmı?**

- Qeyd etdiyiniz kimi, teatrımız tez-tez beynəlxalq festivallarda iştirak edir, Azərbaycan incəsənətini, mədəniyyətini yüksək səviyyədə təmsil etməyə çalışır. Son zamanlar bu sahədə əldə etdiyimiz uğurların nəticəsidir ki, nüfuzlu sənət yarışmalarının, beynəlxalq festivalların təşkilatçıları teatrımızla müntəzəm əlaqə saxlayır.

Ötən mövsümün sonunda teatrın balet truppası qardaş Türkiyənin Bayburt şəhərində keçirilən XXV Dədə Qorqud Festivalında iştirak etdi. Təşkilatçıların, tamaşaçıların balet truppamızı "Festivalın gözü" adlandırması hamımızı qürurlandırdı.

Bu günlərdə daha bir nüfuzlu tədbirə dəvət almışıq, teatrımız gələn ayın 10-dan 15-dək Albaniya Respublikasının Elbasan şəhərində ənənəvi düzənlənən Skampa Beynəlxalq Müasir Teatr Festivalında iştirak edəcək. Sayca 21-ci dəfə keçirilən bu festivalda dünyada absurd teatrının yaradıcısı Samuel Bekketin "Qodonun həsrətində" tamaşasını təqdim edəcəyik. Tamaşaya əslən Cənubi Azərbaycandan olan tələbəm Yunis Vəlipur quruluş verib, bədii rəhbəri olduğum səhnə əsərində istedadlı bəstəkar Fərəc Qarayevin musiqilərindən istifadə olunub.

Qeyd etdiyim kimi, müxtəlif ölkələrdə keçirilməsi planlaşdırılan bir neçə festivalın təşkilatçıları bizə dəvət məktubların göndəriblər, hazırda bu istiqamətdə danışıqlar gedir. Mədəniyyət Nazirliyi ilə razılaşdırdıqdan sonra bu məsələlərə aydınlıq gələcək. İnanıram ki, həmişə olduğu kimi, nazirlik rəhbərliyi yenə də teatrımıza diqqət və qayğı göstərəcək. Azərbaycandan kənarda da ölkəmizin incəsənətini layiqli şəkildə təmsil edərək Bakıya qayıdacaq, doğma səhnəmizdə, maraqlı tamaşalarımızı daimi tamaşaçılarımız qarşısında oynayacağıq. Onların alqışı yeni sənət uğurları qazanmağa stimul olacaq.

**Etibar CƏBRAYILOĞLU**